## «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 7 noyabr (Cümə axşamı günü) tarixli XXXIII nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Pəncşənbə, 30 məhərrəmülhəram sənə 1337. 7 təşrini-sani sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## ELANİ-RƏSMİ
## [RƏSMİ ELAN]

Acil ehtiyacat [ehtiyaclar] və istimdad [kömək istəmək] üçün telefonla gündüzləri 25-80, gecələri 6-23 nömrəli Polis Müfəttişi-Ümumiliyinə [Baş Polis Müfəttişliyinə] müraciət ediniz.

## ELAN

Azərbaycan Ordusu komandanı Nuri paşa həzrətlərini xüsusi ziyarət arzusunda bulunan zəvata [şəxslərə] elan olunur ki, ziyarətlərindən bir gün əvvəl isimlərini Ordu səryavəri Asəf bəyə qeyd etdirsinlər. Qəbul zamanı: qəbləzzəval [günortadan əvvəl] saat 10 – 12-yə qədərdir.

*10*

## ELANİ-RƏSMİ
## [RƏSMİ ELAN]

Saxta polis və zabit uniforması ilə kəndi-kəndilərinə yalandan təhərri [axtarış] məmuru (poiskovı) süsünü [görünüşü] verən İran əhli və bəzi yerli gənc müsəlmanlardan mütəşəkkil bir saxtakar kompaniyası daha təhərri komissarlığı tərəfindən dərdəst edilmişlərdir [tutulmuşdur]. Bunların isticvabatından [sorğu-sual edilməsindən] anlaşıldığına görə, cəbr [zor işlətmək] və təhdid surətilə safdilan [sadəlövh] əhalidən hələ para və sairə alınmaqda və ya qəsb olunmaqdadır. Əhali tamamilə bilməlidir ki, heç bir məmura heç bir surətlə para və sair əşya verilmək haqqı və səlahiyyəti verilməmişdir. Məhbusin [məhbuslar] və mövqufin [saxlanılanlar] və ya hər hangi bir işdən dolayı rüşvət verməklə hər kəs əqrəbasının məhbusiyyət və mövqufiyyətinə [həbsinə və saxlanılmasına] fayda əldə etməyə bədəl [əvəzində; qarşılığında], əlaqədaranı [əlaqədar şəxsləri] şiddət tətbiqinə təşviq edəcəklərindən, kimsə gizli vasitələrə müraciət etməməli və hər hangi bir cəbr və təhdid və ya iğfal [aldatma] vüquunda [baş verdikdə] dərhal: gündüzləri "25-80", gecələri də "6-23" nömrəli Polis Müfəttişi-Ümumiliyinə telefonla məlumat verməlidir. Polis Müfəttişliyi ildırım sürətilə hər kəsin ehtiyac və istimdadına [köməyinə yetişməyə] hazırdır.

*Polis müfəttişi-ümumisi Bəhaəddin*

Azərbaycan müharibəsində can fəda edən
şühədanın ailəsi mənfəətinə

**DRAMA AXŞAM TAMAŞASI**
Azərbaycan Hökumətinin teatrosunda (sabiq Mailov)
Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli qardaşlarının müdiriyyəti
Cümə günü təşrini-saninin 8-ində (oktyabrın 26-sı)
1334-1918-inci ildə
Azərbaycan müharibəsində can fəda edən
şühədanın ailəsi mənfəətinə
Türk ədiblərindən məşhur Şəmsəddin Sami bəyin
**"Gaveyi-ahəngər"**
adlı məşhur 5 pərdəli pyesası təntənəli surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır. Təfsilat və iştirak edən
əşxas afişa və proqramda qeyd ediləcəkdir.

Bu teatronun şühəda ailəsi mənfəətinə oynanıldığını nəzərə alaraq, müdiriyyət və aktyorlar canfəşanlıqla bimuzd və bitəmənna çalışmağı ən böyük vəzifələrdən sanıb, hasil olan mədaxilin hamısını şühəda ailəsi mənfəətinə yetişməsinə qərar veribdirlər. Ümidvarız, möhtərəm camaat bu kari-xeyrə [xeyirxah işə] əhəmiyyət verərək, maddi cəhətcə kömək etməkdən boyun qaçırmazlar. İstəyənlər tərəfindən ianə də verilərsə, teatronun kassasında mütəşəkkirən qəbul olunub, ismi və verdiyi paranın qədəri qəzetələrdə elan ediləcəkdir.

*Hacıbəyli qardaşları müdiriyyəti*

## ELAN

Bakıda mövcud bilcümlə [bütün] rus zabitanının [zabitlərinin] iyirmi dörd saat zərfində Mərkəz Komandanlığına müraciət edərək adreslərini bildirmələri elan olunur.

*Azərbaycan Polis*
*müfəttişi-ümumisi Bəhaəddin*
*717 1-1*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Xariciyyə Nəzarətindən**

Təşrini-əvvəlin [oktyabrın] 30-undan etibarən Azərbaycan Cümhuriyyəti Xariciyyə naziri müavini vəzifəsini ifaya başladım.

*Xariciyyə naziri müavini*
*A. x. Ziyadxanov*

**Daxiliyyə Nəzarətindən**

30 təşrini-əvvəl [oktyabr]

Gəncə nahiyəsi 4-üncü hissə miravoy pasredniki Əhməd ağa Mustafa ağa oğlu Vəkilov işlərin xeyri üçün təşrini-saninin [noyabrın] birindən Qazax birinci şöbəsinə həman mənsəbə təyin edilir.

*Daxiliyyə naziri B. Cavanşir*

**Azərbaycan Maarif Nəzarətindən**

30 təşrini-əvvəl [oktyabr]

Nömrə 77

Axund Hacı Yaqub Baratzadə, bu il təşrini-saninin [noyabrın] birindən Gəncə zükur [oğlanlar] gimnaziyasına şəriət müəllimi təyin edilir.

*2 təşrini-sani*

31 təşrini-əvvəl [oktyabr]

Nömrə 78

Bu il təşrini-saninin ibtidasından [əvvəlindən] Vəsilə xanım Musabəyov[a] Bakı ünas [qızlar] Müqəddəs Nina məktəbinin ehtiyat [hazırlıq] siniflərində müəlliməliyə buraxılır.

Nömrə 79

Bakı Mariinski ünas [qızlar] gimnaziyasının sabiq müəlliməsi F.Kopilova təşrini-saninin [noyabrın] birindən etibarən həmin məktəbdə rus lisanı və tarix müəlliməliyinə buraxılır.

Nömrə 80

Təşrini-saninin birindən etibarən Reyhan xanım Axundov[a] Bakı Müqəddəs Nina ünas məktəbində türk lisanı müəlliməliyinə buraxılır.

Nömrə 81

Bakı Müqəddəs Nina məktəbinin rəsm müəlliməsi Olqa Pavlovna Şiltsova, təşrini-saninin [noyabrın] birindən 3-üncü zükur [oğlanlar] gimnaziyasına rəsm müəlliməsi təyin edilir.

Nömrə 82

Kremençuq ünas [qızlar] gimnaziyasının sabiq müəlliməsi Yelena Mitrofanovna Yançinskaya təşrini-saninin [noyabrın] birindən Bakı Mariinski ünas gimnaziyasında coğrafiya müəlliməliyinə buraxılır.

Nömrə 83

Qaziyan kənd məktəbi müəllimi Hacı Hüseyn Əfəndiyev Göyçay ali-ibtidai məktəbinə müəllim təyin edilir.

*Maarif naziri N. Yusifbəyli*

**Maarif Nəzarətindən**

4 təşrini-sani [noyabr] 1918

Gəncə "Ənvəriyyə" zükur [oğlanlar] məktəbinin müəllimi Mirzə Əziz Musazadə Gəncə zükur gimnaziyasına türk lisanı müəllimi təyin edilir.

Gəncə 17-nci ruhani məktəbinin müəllimi Ələkbər Babazadə Gəncə zükur gimnaziyasına türk lisanı müəllimi təyin edilir.

*Maarif naziri N. Yusifbəyli*

* * *

Azərbaycan İdareyi-Ruhaniyyəsinin [Ruhani İdarəsinin] katibi müavini İbrahim Qayıbov, Maarif Nəzarəti tərəfindən Qazax darülmüəlliminində [pedaqoji məktəbində] lisan müəllimi təyin edilmişdir. Təşrini-saninin [noyabrın] birindən əski vəzifəsindən azad edilir.

## BAKI, 20 MƏHƏRRƏM

Qarabağ xüsusunda bir neçə gün əvvəl Tiflis qəzetələrində bəzi şayiat [şayiələr] dərc edilmişdi. Həmin şayiat, ümum Azərbaycan türklərinin böyük bir heyrətinə bais olması şübhəsizdir. Qəzetələrin dediyinə görə, İstanbulda hazır olan erməni heyəti, sədrəzəm İzzət paşa həzrətlərinə bilmüraciə [müraciət edərək] Qarabağa türk qitəatı göndərilməsindən vaz keçilməsini istida [xahiş] etmişlər. Göstərdiyimiz mənbədən olan digər bir şayiat dövr edir ki, Xəlil paşa həzrətlərinin erməni cümhuriyyətində olduğu zaman, eyni istidanı erməni nümayəndələri mumaileyh [adı çəkilən] paşa nəzdində dəxi etmişlər və Xəlil paşa bu xüsusda təşəbbüsatda bulunmağını vədlər etmişlər.

İzzət paşa həzrətlərinin Azərbaycanın kəndisinə aid və həmin məmləkətin mənafeyi üçün böyük bir əhəmiyyəti haiz məsələyə müdaxiləsi, beynəlmiləl qəvaninə [qanunlara] riayət nöqteyi-nəzərincə nə şəkil və nə surətdə olacağı başqa bir məsələdir.

Lakin Qarabağı üsyançılar əlindən qurtarmaq üçün oraya nəql edilən qitəatımız bilümum və baş komandanlığı ilə məhəlli [yerli] hökumət nümayəndələrinin nə vəziyyətdə bulunub-bulunmayacaqları hal-hazırda bizim fikrimizi işğal edən məsələlərdir.

Eşitdiyimizə görə Qarabağ, ələlxüsus oranın dağlıq cəhətləri üsyançılardan tamamən təmizlənməmişdir. Üsyançılar müqabillərində [öz qarşılarında] kəsrəti-qüvvə [böyük qüvvə] gördükdə, silahlarını götürüb dağlara və başqa möhkəm köylərə fərar edirlər və köylərdə yalnız ixtiyarlar ilə çocuqları buraxırlar. Onlar aman bayrağını çıxarıb təslim olurlar. Eyni zamanda mükəmməl bir surətdə müsəlləh olmuş [silahlanmış] gənclər öz qüvvələrini müharibədən mühafizə etməklə bərabər, başqa mövqelərə toplaşıb dürlü-dürlü suiniyyətlər və müfəttinanə [fitnəkar] fikirlərlə uğraşırlar.

Deməli, silah daşımağa qabil olammayan ənasirlə [ünsürlərlə] bir taqım səmimi sülhcü [sülhpərvər] qruplar arada sülh və müsalimət [asayiş] arzusundan nəşət edən [irəli gələn] kəndi məsruriyyətlərini [sevinclərini, şadlıqlarını] izhar etdikdə, müsəlləh gənclər pusquda hazır və amadə durub, vəziyyətin dəyişməsinə müntəzir olurlar [vəziyyətin dəyişməsini gözləyirlər].

Burası Qarabağ türkləri üçün pək vəxim [qorxulu] və dəhşətli bir hal doğurur.

Qarabağ islamlarının asayiş və həyatı bizcə bir dəfə qəti bir surətdə təmin edilməli ki, gələcəkdə onlar təhlükə təkrarından bilkülliyə [tamamilə] məsun [toxunulmaz] qalsın.

Bu xüsusda nə kimi tədbir və binagüzarlıqlar [sərəncamlar; atılacaq addımlar] və nə dürlü siyasət işlənilməsi, Hökumətimizə və komandanlarımıza aid məsələdir.

Lakin burasını unutmamalıdır ki, Bakı məmləkətimizin cismini, bədənini təşkil etdikdə, Qarabağ Azərbaycanın ruhunu, onun dimağını [beynini, şüurunu] təşkil edir. Bakı Azərbaycanı maddi cəhətdən təmin edirsə, Qarabağ onu mənəvi cəhətdən təmin edən bir bölgə olduğu hər kəscə müsəlləmdir [hamı tərəfindən şübhəsiz qəbul edilir]. İndiyə kimi Azərbaycan türklərinə ruhi və mənəvi sərvət verən, onları ziyalı və münəvvər qüvvələrə malik edən Qarabağ və yenə də Qarabağ olmuş desəm, burasını heç bir Azərbaycanlı inkar edəmməz, zənnindəyəm.

Bunun üçün Qarabağı əlimizdə bərk-bərk saxlamaq bizim üçün həyat və məmat [ölüm] əhəmiyyətini haiz [daşıyan] bir məsələdir. Burasını təkrar dərxatir edib də [yada salıb da], bu yolda ciddi sərəncamlar ittixaz ediləcəyinə [addımlar atılacağına] bütün ümidimizi bağlayırıq.

## TELEQRAF XƏBƏRLƏRİ

**Vilhelmin hökumət başından çəkilməsi**

"Forverts" qəzetəsi təsdiq edir ki, nazir Şeydeman, imperator Vilhelmin Hökumət başından kənar olması lüzumu haqqında kanslerə bir məruzə vermişdir. Bu iqdamat [təqdimat], firqə nümayəndəliklərinin və Reyxstaq firqələrinin razılığı ilə qəbul edilmişdir.

**Almaniyada**

Berlin Hökumət sosialistləri öz mətbuatlarında alman imperatorunun təxti-səltənətindən əl çəkməsini təkid edirlər. Alman burjuaziyası arasında həyəcan hökmfərmadır [hökm sürməkdədir]. Dövlətli sinfi öz pullarını banklardan və əmanət sənduqələrindən [kassalarından] alır. Böyük şəhərlər, kağız pullar buraxmaqdadırlar. Almaniya Hökuməti bolşevizmlə ciddi surətdə mübarizə etmək niyyətindədir. Hərbiyyə kabinəsi axırıncı [iclasında] bolşevizm tərğib [propaqanda] və təşviqat məsələsini müzakirə etmişdir. Kabinə lazımi qərarlar qəbul etmişdir.

**Çex Hökumətinin təsdiqi**

Berlin Təzə Çex Hökuməti Almaniya Hökuməti tərəfindən təsdiq edilmişdir [tanınmışdır].

**Vyanada inqilab**

Vyana. Təşrini-saninin [noyabrın] 2-sində xəbər verirlər ki, saldatlar arasında həyəcan hökmfərmadır [hökm sürməkdədir]. Hər gün Parlamento qarşısında bolşevik ruhunda izdihamlı əsgəri mitinqləri vaqe olmaqdadır. Saldatlara müraciət edən vəkillər onları inandıra bilməmişlərdir.

* * *

Berlin. Xəbər verirlər ki, Vyanada Müvəqqət Saldat Şurası [Müvəqqəti Əsgər Şurası] əmələ gəlmişdir. Bu şurada 13 komissiya təsis edilmişdir. Saldatları Milli Şuraya sadiq qalmağa yəminə [and içməyə] məcbur etməkdən ötrü, saldat qışlalarına [kazarmalarına] vəkillər göndərilmişdir. Saldatlar gizli seçki ilə saldat şuraları intixab etməkdədirlər [seçməkdədirlər]. Vyana Saldat Şurası 200 nəfərdən ibarət olacaqdır. Vyana misalında Avstriyanın almanlarla məskun yerlərində saldat şuraları vücuda gətiriləcəkdir.

* * *

Vyana. Avstriya-Macarıstan hərbi donanması Müttəfiqlər tərəfindən tutulmamaq üçün Slav Milli Şurasına verilmişdir. Mütarikə əqd edildikdən [atəşkəs imzalandıqdan] sonra, Vyana şəhərinin Müttəfiqlər tərəfindən zəbti qorxusu var. Baş vəzir Lammaş Almaniya-Avstriya nahiyəsinə aid hökumət işlərini Şurayi-Dövlətə təhvil vermişdir.

İmperator qiymətli şeyləri özü ilə götürüb, hal-hazırda Qedldədir. Vyanada əvvəlcə burjuaziya ruhunda vaqe olan nümayişlər, inqilab ruhunu almışlardır. Küçələrdə böyük fəhlə dəstələri nümayan olmuşdur [meydana çıxmışdır]. "Yaşasın sosial-demokrat cümhuriyyəti" və "Adlerin azad olmasını tələb edirik" yazılı bayraqlar və lövhələr gəzdirilməkdədir. Fəhlələrin arxasınca saldatlar, şikəst saldatlar və həmçinin dəmiryol fəhlələri dolaşmışlar. Əslihə [silah] fabrikası tətil etmişdir. Saray qapıları bağlanıb, polisə tərəfindən mühafizə edilməkdədir.

* * *

Vyana. 23-üncü Avstriya əsgəri firqəsi [diviziyası] üsyan və cəbhəni tərk etmişlərdir. Cürbəcür millətlərin ayrı-ayrı dəstələri bir-birləri ilə müharibə edirlər. Əsgərlər nizamsız bir surətdə geri çəkilirlər. Avstriyadan gələn xəbərlər sabiq Habsburq imperiyasının fövqəladə bir iğtişaşa düçar olduğunu işar edirlər [göstərir].

* * *

Fridrix Adler azad edilib, Avstriya inqilab hərəkatının başında durmuşdur.

**Peştədə inqilab**

Berlin, 2 təşrini-sani [noyabr]

Peştədəki inqilabın təfsilatı böylədir. Çaharşənbə gecəsi qoşunlar da nümayişçilərə mülhəq olurlar [qoşulurlar]. Saldatlar nişanlarını çıxararaq, "Yaşasın Cümhuriyyət" deyə bağırırmışlar. Gecə yarısı inqilabiyyun [inqilabçılar] dəstələri vağzalı işğal etmişlər. Cəbhəyə gedəcək 2 əsgəri tren dayandırılmışdır. Bu qoşunlar da inqilabiyyuna mülhəq olmuşlar. Əhalidən bir çoxu silah almışdır. Üsyançıların bir çox pulemyot, ləvazimati-hərbiyyələri [hərbi sursatları] vardır. Macar silah fabrikası qarət edilmişdir. Gecə yarısı xəbər alınmışdır ki, 32-inci Peştə alayı, Hökumətə tabe olmaqdan imtina edərək, cümhuriyyətçilər tərəfinə keçmişdir.

* * *

Vyana. Təşrini-saninin [noyabrın] 2-sində verilən xəbərlərə görə, İtaliya dağlıq cəbhəsində bizim əsgərlərimiz təxliyəyə başlayıb, İtaliya müharibəsi ibtidasında [başlanğıcında] olduqları mövqeni tutacaqlardır. Venetsiya səhrasında əsgərimiz Talyamento tərəfə çəkilirlər. Serbiya torpağının hər yeri bu yaxın zamanlarda əsgərlərdən azad ediləcəkdir.

**Qraf Tisanın qətli**

Qraf Tisa, Peştədə qövmlərindən bir nəfər arvad ilə səyahəti əsnasında tapança güllələri ilə bir saldat tərəfindən qətl edilmişdir. Qrafın yanında olan məzkur arvad ağır surətdə yaralanmışdır.

## SÜLH ƏTRAFINDA

**Mütarikə şəraiti [atəşkəs şərtləri]**

Fransız Bəhriyyə naziri palatada izhar etmişdir ki, Türkiyə ilə əqd edilən mütarikə mövcibincə [imzalanan atəşkəsə uyğun olaraq], Müttəfiq hökumət gəmilərinin Dardanel və Bosfor istehkamlarını tutub, Qara dənizə azad keçəcəkləri, həmçinin Müttəfiq hərbi əsirlərin öz vətənlərinə göndərilmələri gözlənir. Mütarikə pəncşənbə günü günortadan qanuni hesab edilir.

* * *

İngilis qəzetələrinin verdikləri məlumata görə, ingilis bəhriyyə [donanma] qüvvələrinin İstanbula gəlməyi gözlənilir.

* * *

Vyana. Təşrini-saninin 2-sində xəbər verirlər ki, Avstriya İtaliyadan aldığı yerləri boşaltmaqdadır. Avstriya Ərkani-Hərb naçalniki [Baş Qərargah rəisi] rəsmi surətdə xəbər verir ki, Baş Komandanlıq Parlamento müavinətiylə İtaliya Baş Komandanlığı ilə müzakirəyə girişmişdir. Təşrini-əvvəlin 30-unda axşam İtaliya Baş Komandanlığı ilə sazişə müvəffəq olmuşdur. General fon Veber müzakirat başlamaqdan ötrü, vəkillər heyəti ilə bərabər müharibə xəttini keçmişdir.

* * *

Kopenhaq Müttəfiqlər Almaniyaya vermək üçün, Parisdə böylə sülh şəraiti [şərtləri] hazırlamışlar: Almaniya tezliklə öz əsgərlərini Elzas-Lorendən [Elzas-Lotaringiyadan] çəkməlidir. Fransızlar Mets ilə Strasburqu işğal edirlər. Almaniya öz hərbi donanmasını təslim edir. İngilislər Qoqlandı, Amerikalılar isə Reyn körpülərini tuturlar. Essendə olan top və silah zavodları Müttəfiqlərin kontrolu altında olacaqdır.

## TİFLİS
## SALDAT VƏ FƏHLƏ ŞURASININ QƏTNAMƏSİ

Tiflis, 3 təşrini-sani [noyabr].

Tiflis. Saldat və Fəhlə Şurası, beynəlmiləl əhvalı və Gürcüstan Cümhuriyyəti vəziyyətini müzakirədən sonra, işbu qərarnaməni qəbul etmişdir:

1. Müharibə bitmək üzrə olduğundan, demokratiyadan tələb olunur ki, demokratiya mənafeyinə bütün, xüsusən fəhlə sinfindən müvafiq olaraq millətlər etilafı [uzlaşması] və ümumi tərkisilah əsası üzərinə ümumi demokratik sülh əqdinə [imzalanmasına] var qüvvəsi ilə çalışsın. Hökumətlər miyanında [arasında] baş verəcək ixtilafları yatırmaq məsələsində ümum dövlətlər müsavi [bərabər] hüquqa malik olmalıdırlar.

2. Beynəlmiləl əhvalın dəyişməsindən naşi [dəyişdiyi üçün], bu vaxtadək əzim [böyük] Rusiya inqılabı fütuhatını [nailiyyətlərini] saxlamağa müvəffəq olmuş Gürcüstan Demokratik Cümhuriyyəti[ni] inqilab düşmənlərinin təərrüzündən [hücumundan] mühafizə etməkdən ötrü, bütün demokratiya öz qüvvəsini cəm etməli və sayğın [ayıq-sayıq] olmalıdır.

3. Gürcü demokratiyası və ümum Zaqafqaziya üçün ən böyük təhlükə mənbəyi, bir para dargöz millətçilər tərəfindən Zaqafqaziya millətləri miyanında [arasında] görünməkdə olan milli ixtilafdır. Bundan dolayı Şura; Gürcüstan Hökumətinin millətləri barışdırmaq və bütün məsələləri sülh təriqi [yolu] ilə həll etmək təşəbbüsatını [təşəbbüslərini] səmimi qəlb ilə təbrik və təhniyət edir [alqışlayır]. (Burada buraxılmışdır.) Bir çoxları Gürcüstan Hököməti üzərində anarşi və iftiraculuq [fitnəkarlıq] buludlarının qarışmasından istifadə edərək, belə işlərdə səy və təlaşa başlamışlar. Demokratiya işbu qüvvələrə amansız mübarizə elan etməlidir.

4. Millətlər münasibatında ədalət əsası vəz edilməsi [millətlərarası münasibətlərin ədalət əsası üzərində qurulması] məsələsində Şura tamamilə Qərbi Avropada; başında Beynəlmiləl İctimaiyyun [Sosializm] Bürosu duran İnternasionala və Zaqafqaziyada ümum demokratiyanın, xüsusən, ictimaiyyun üzvlərinin birləşmələrinə ümidvar olur.

## TÜRK ƏDƏBİYYAT VƏ LİSANI VƏ TÜRK CƏRƏYANİ-ƏFKARI [TÜRK ƏDƏBİYYATI VƏ DİLİ, TÜRK FİKİR CƏRƏYANLARI]

(Ruşən Əşrəf və Ruşəni bəylərin konfransı)

*(keçən nömrələrdən mabəd)*

15 dəqiqə tənəffüsdən sonra, Bakı və bilümum qafqaziyalılarca bəsbəlli olan [yaxşı tanınan] Ruşəni bəy səhnəyə çıxdıqda, alqışlara nail oldu. Samelər [dinləyicilər] azlığı və camaatımızın belə bir mühüm konfransa laqeyd görünməsi gərək xətibin əhvalına, gərək onun verdiyi konfransa təsir bağışlayacağı təbiidir. Ruşəni bəy qafqaziyalılar lisanına bir parça aşina olduğundan, söyləyəcəyi əfkarı samelərin dilinə dolaşdırmaq istəyirdi. Vaxt müsaidəsilə konfransın məzmununu ixtisarən dərc edirik. Şu leksiya da təxminən böylə başlandı:

*"Xanım əfəndilər və bəy əfəndilər!*

*Ruşən Əşrəf bəy Türkiyədə ədəbi inqilaba və bugünkü türk ədəbiyyatına dair söylədi. Bəndəniz də türk ictimaiyyatına və türk gəncliyi barəsində söyləyəcəyim. Müsahibəmiz təbii siyasidir.*

*Bilirsiniz ki, bir millət ya hali-təbiidə [təbii halda] yaşar və heç bir qayeyi-əməli [idealı] olmaz və yaxud bir proqram daxilində çalışaraq, uzaq üfüqlərdən doğacaq parlaq günəşləri intizar edər [gözləyər].*

*Əgər bir millət hali-təbiidə yaşarsa və heç bir milli qayəsi yox isə, o vaxt o millətdə yalnız əxlaq və ənənələr hökm sürər. Təbii, o milləti anlamaq üçün ancaq əxlaq və adətlərini tədqiq etmək kifayət edər.*

*Netə kim [necə ki], qəhhar [güclü] dövlətlər zəif camaatları istila edərkən, əvvəla mühərrirləri və siyasiləri vasitəsilə o camaatların əxlaq və adətlərini tədqiq edərlər və ona görə o camaatları incitmədən məhv edəcək qanunları yaparlar. Əgər bir millət bir proqram daxilində bir qayə təqib edər isə, o millətin bir milli siyasəti var deməkdir. Milli bir siyasət təqib edən millətlər isə, nə qədər istilaya və fəlakətə uğrasa, yenə yaşar və günün birində mütləqa əməlinə [arzusuna] çatar.*

*Rusiyada ən ziyadə milli qayələr bəsləyən polyaklar idi. Onun üçün Rusiya məhv olarkən, ən parlaq surətdə haqqını tanıtdıran yenə polyaklar olmuşdur. Fransızlar çox əskidən bəri vətən eşqini milli siyasət ittixaz [qəbul] etmişlərdir. Fransız milləti hər fəlakət qarşısında Elzas və Loreni [Elzas-Lotaringiyanı] unutmamışdır. Onun üçün günün birində bu sevgili vətənlərinə çatacaqlarına şübhə yoxdur.*

*Əlhasil, siyasətin bir şöbəsi milli siyasətdir ki, daima bir milləti təşkil edən əfradın [fərdlərin] hər biri o eşq ilə yaşar, hər an uzaq üfüqlərdə o eşqi arar, hər gün o eşq yolunda malını fəda edər. Hər fürsətdə o eşq üçün can verər və ən nəhayət sevgili məşuqəsini bular və qucaqlar. Siyasətin digər şöbəsi dövlət siyasətidir. Dövlət siyasəti deyilə bilər ki, mənfəət siyasətidir. Onun üçün dövləti təmsil edən nazirlər və siyasi adamlar hər günün fürsəti ilə yeni mənfəətlər üçün proqramlar yaparlar və bu surətlə ara-sıra siyasətlərini dəyişdirərlər. Təbii, bu siyasətin məntiqi və vicdanı yoxdur. Biz bu gecə dövlət siyasətindən bəhs etməyəcəyiz.*

*Gələlim Türkiyədəki millət siyasətinə:*

*Xanım əfəndilər və bəy əfəndilər!*

*Türkiyədə əskidən millət siyasəti yox idi. Əvvəla, bilirsiniz ki, türklər çox əskidən bəri şahpərəst olmuşdur. Yəni türklər əski zamanlarda daima başlarına bir qəhrəman keçirmişlər və ondan sonra ona peyrov olaraq [tabe olaraq; ardınca gedərək] dünyaya saldırmışlardır.*

*İştə Osmanlı dövləti də Səlcuqi ənqazı [qalıqları] üstündə böylə bir qəhrəman ailənin əli ilə qurulmuşdur. Bu surətlə, Osmanlı dövləti qurulduqdan sonra, Türkiyə camaatları heç bir şey düşünmədən padşahlarına taxılmış və eləcə dünyaya hakim olmağa çalışmışdır.*

*İştə Türkiyənin ən parlaq istila dövrləri böylə yalnız dövlət siyasəti ilə keçdiyi kimi, Sultan Süleymani-Qanunidən Sultan Əbdülhəmidə qədər imtidad edən [uzanan] təvəqqüf [durğunluq] və süqut dövründə də çırpınmış və dövlətçi olaraq qalmışdır. Yalnız Avropanın təzyiqi ilə Tənzimati-xeyriyyə naminə Türkiyədə başlayan yeni cərəyanlar arasında türklüyü mütaliə edəcək [qiymətləndirəcək] olarsaq, o gündən etibarən siyasətinə əsas olacaq sərmayələr bula biləriz. Binaileyh [ona görə], fikri-acizanəmcə türk inkişafını və türkün son dövri-təcəddüdünü [yeniləşmə dövrünü] Tənzimatixeyriyyədən etibarən aramaq lazım gəlir.*

*Şimdi Türkiyədə dövritəcəddüdün birinci səfhələrini [mərhələlərini] və türk milli siyasətinin ilk təməl daşlarını araşdıralım.*

*Xanımlar və əfəndilər!*

*Türkiyənin dövritəvəqqüf və dövrisüqutunda Türkiyədə 3 dürlü naxoşluq var idi:*

*1. Cəhalət.*

*2. Dinin fəlsəfəyi-həqiqiyyəsi ortadan qeyb olmuş və yalnız təfərrüat üzərində quru bir təəssüb hökm sürmüş idi.*

*3. Türkiyə millət siyasətlərindən və milli qayədən məhrum olaraq, yalnız dövlət siyasəti ilə dolanmaq[da] imiş. Daha doğrusu, o vaxt Türkiyənin [siyasəti] yalnız dövlətçi idi.*

*İştə bu 3 xəstəlik Tənzimati-xeyriyyədən sonra bir çox əsbabi-zərur [zəruri səbəblər] qarşısında tədavi [müalicə] olunmağa başlamışdır.*

*Türkiyədə yarım əsrdən bəri maarif adəta ibtidai haldan başlayaraq tədrici bir dövri-təkamül keçirməkdədir. Bilxassə [xüsusilə], sultan Əbdülhəmid dövründə yüksək idari və əsgəri simalar yetişmişdir. Bu dövrdə əsgərlik, təbabət və ədəbiyyat yüksək addımlar atdığı kimi, sənət, ziraət və sair fənni [elmi; texniki] şöbələr də az-çox feyz göstərmişdir. Əlhasil, son yarım əsrdə elm və fənn [texniki elmlər] Türk lisanına girmiş və elm və fənnin hər şöbəsinə dair bir çox türkcə kitablar yazılmışdır.*

*Dini təkamülə gəlincə: əskidən Türkiyədə din deyilincə namaz, niyaz, oruc, təkyə və əmsal bir çox təfərrüat xatirə gəlirdi. O vaxt mədəniyyət, ticarət, sərvət və sənət kimi şeylər adəta din xaricində şeylər zənn olunurdu. Təbiri-digərlə [başqa sözlə], dünyəvi səadət axirət üçün müzirr [zərərli] tələqqi [hesab] edilirdi.*

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 7 noyabr (Cümə axşamı günü) tarixli XXXIII nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

*Bunun üçün əskidən Türkiyədə böyük fabrikalar, mə'mur [abad] şəhərlər və gözəl binalar, müəzzəm [əzəmətli] məktəblər yerinə böyük camelər, gözəl çeşmələr, qiymətli türbələr və məbzul [çox sayda] təkyələr qaim olmuş [qurulmuş; meydana çıxmış] idi.*

*İştə son yarım əsrdə tədricən dinin həqiqi fəlsəfəsi anlaşılmağa başlamış və maarif, sərvət və mədəniyyətin əqanimi-dindən [dinin həqiqi ünsürlərindən] olduğu təzahür etmişdir. "Qurani-kərim" ən qəti bir əmrlə ("Və əiddü ləhüm məstəta'tüm minqüvvətin") millətin bacara bildiyi qədər güc hazırlamasını əmr edir. Halbuki, millətin yarısı qadın olduğu və millətin gücünün yarısı da qadında bulunduğu halda, Türkiyə əskidən qadının böyük ağlından, çalışqan vücudundan və gözəl əlindən feyz aparmayırdı. Şimdi isə çox şükür, elmin bütün şöbələrində qızlarımız oxumaqda olduğu kimi, dövlətin bütün idarələrində xanımlarımız da çalışmaqdadır.*

*Bu gün yalnız dövlətin fabrikalarında 10 mindən artıq qadın işləməkdədir. Əvət, bu gün Türkiyədə qadın sürətlə yüksək məqamına çıxmaqda və qiymətli vücudu ilə vətənə xidmət etməkdədir. Binaileyh, əskidən quru təəssübə qurban olan qadın, bu gün həqiqi din naminə qurtulmuş və səadətə doğru yürüməyə başlamışdır.*

*Gələlim millət siyasətinə.*

*Təbii, Türkiyədə cəhalət və təəssüb mərəzləri müalicə olunca, millətin gözü açılmağa başlamış və millətdə vicdani cilvələr [işıltılar, parıltılar] baş göstərmişdir. Bu surətlə, yavaş-yavaş bildiyiniz adabi inqilab [məişət qaydalarında, düşüncə və yaşayış tərzində inqilab] mövcud olmuş, məşrutiyyət düsturları [konstitusiya prinsipləri] ortaya gəlmiş və millətdə fikri-tənqid [tənqidi düşüncə] oyanmışdır.*

*Millət fikri-tənqid ilə idarə işlərini anlarkən, milli ehtiyaclarını görmüş və bu sayədə vicdanında yüksək duyğular bəlirməyə başlamışdır. İştə sizə ərz etmək istədiyim Türk millət siyasəti. Türkiyədə vicdani-millətdə baş göstərən yüksək duyğular hənuz əsaslı proqramlarla təsbit olunmamışsa da, çox keçmədən mükəmməl proqramlara bağlanacağına və bütün əfradi-milləti [millətin fərdlərini] eyni qayə və eyni eşq yolunda aparacağına şübhəm yoxdur.*

*Türkiyədəki millət siyasətinin ən parlaq misalı[nı] şimdi bu gözəl teatroda sizin yanınızda oturan türk qardaşlarınız göstərmişdir.*

*Əvət, yüksək duyğu ilədir ki, Türkiyənin bunca fəlakətlərinə, bunca qanlı cəbhələrinə və bunca əlim [ələmli, kədərli] nöqsanlarına rəğmən, türk qardaşlarınız sizin fəlakətinizə qarşı laqeyd qalmamış və qəhrəman Nuri paşanın səyi ilə zəhmət və zərurətlə [çətinliklə] dağlar və uçurumlar aşmış, düşməni təpələmiş və ən nəhayət sizi qucaqlamışdır.*

*Xanımlar və bəylər!*

*Bizim gəlişimizin əsbabını [səbəblərini] bilirsiniz. Bir ana təsəvvür ediniz ki, bir çox zamanlar sevgili yavrularını qucağında daşıdığı halda, dünyaya hakim olsun, sonra o qəhrəman ananı yaralasın və bir çox övladını zorla alsın və əsarət altında saxlasın[lar]. İştə Türkiyə o ana və siz o yavrularsınız.*

*Bu gün o ana bir çox yerindən yaralı olduğu halda, sizə qovuşacağını anladı. Düşmənin sövlətlərinə [hücumlarına] köks gərdi. Dağ, uçurum və atəşə baxmadı. Qanını axıdaraq qoşdu və ən nəhayət sizi qucaqladı.*

*Bu sözlərimin doğruluğunu isbat üçün sizin əlim və həzin günlərinizi xatırlatmaq kifayət edər. Siz düşmənin qəhhar və vicdansız pəncəsi altında inlər ikən, uzaqdan ildırım sürəti ilə sizə qoşan Türk Ordusu nəzərinizdə nə cilvələr yapdı isə, sizin də qollarınızı uzadaraq ondan istimdad edişiniz [yardım istəməniz] ona eyni təsiri yapmışdır. İştə bən bu lətif və həzin mülaqatı [görüşü; söhbəti] ancaq ələm-didə [qüssəli, kədərli] ana və əsir yavru mülaqatına bənzədirəm.*

*Bütün bu hərəkətlər isə yalnız dövlət proqramı ilə deyil, bəlkə millət eşqi və vicdan duyğusu ilə olmuşdur. Onun üçün türk milləti bu yüksək duyğuları və sağlam milli siyasəti ilə yaşayacaq və yüksələcəkdir."*

Bununla konferans bitdi və camaat evlərinə 11 buçuqda [12-nin yarısında] övdət etməyə [qayıtmağa] başladı. Təəssüflər olsun ki, bir çox müştaqani-ədəb [ədəbiyyat müştaqları] bu gecənin feyzindən məhrum olmuşdur. Təbii, konfransdakı gözəlliyi bir samenin [dinləyicinin] yazdığı sətirlər əhatə edəmməz. O gecə gəlməyənlər istər ədəbi, istər siyasi leksiyaları eşitməməklə çox şey itirmişlər. Zənnimizcə, Ruşən Əşrəf bəy lütfən bir qaç dəfə verəcəyi konfransda qafqaziyalıların türk ədəbiyyatına olan iştiyaqını [şövqünü, marağını] bir az da yüksəltməklə bərabər, bir çox ədəbi tərənə eşitməklə qəlbimizdəki hissiyyatı bir az da incələşdirər. Ruşən[i] bəy də fəlakətli günlərimizdə bizimlə bərabər inləyərək və böyük türklük siyasətini iləridən yürütdüyü kimi, bundan sonra qafqaziyalı ziyalılar miyanında [arasında] türk milli siyasətini qəlblərimizə girdirmək üçün kərəmən [alicənablıq edərək] bir qaç kərə və geniş müntəzəm planlı konfranslar verəcəkdir.

*M. Hənəfi*

## RUSİYA HÖKUMƏT PROQRAMI

Hal-hazırda Ufa şəhərində Hökumət Şurası iclas etməkdədir. Aşağıda yazılan Hökumət Məramnaməsi hazırlanıb, Hökumət Şurası tərəfindən qəbul edilmişdir.

**Hökumət təşkilatı**

5 nəfərdən ibarət olan Müdiriyyət (Direktoriya) fəal vəzirlər təyin edib, özü isə öz fəaliyyəti haqqında işlər başlandığı zaman yanvarda 250 və fevralda 170 nəfərdən ibarət üzvləri olan Məclisi-Müəssisan hüzurunda məsuldur.

**Hökumətin Məramnaməsi**

Xarici siyasət haqqında hökumətin məqsədi bundan ibarət olur:

1. Rusiyanı bolşevik hökumətindən xilas uğrunda mübarizə; federasiya əsası üzərinə Rusiyanın xarab olmuş və Rusiyadan ayrılmış hissələrinin təcdidi [bərpası] və birləşdirilməsi.

2. Brest-Litovsk əhdnaməsinin rəddi, Rusiyanın daxili işlərinə qarışmamaq və təvizatdan [kompensasiyadan] imtina etmək şərti ilə Müttəfiq hökumətlər ilə müahidə münasibatının təcdidi [müqavilə danışıqlarının bərpası].

[Hərbi siyasət:]

1. Firqələr nüfuzu xaricində və tamamilə ümum Rusiya Hökumətinin ali komandanlığına tabe olmaq şərti ilə güclü və müharibəyə yarar ordu vücuda gətirilməsi.

2. Əsgəri siyasi təşkilatların qadağan edilib, əsgəri məmurların mülkiyyə idarəsi işlərinə qarışmamaları.

3. Komanda heyətinin təyini ancaq şəxsi xidmətlər və hazırlıqlar əsası ilə olmalıdır.

4. Əsgəri xidmətdə olanların xidmətdə olmadıqları zaman ümumi mülkiyyə hüquqlarına malik olmaları ilə qanunu riayə [qanunu gözləmək; qanuna riayət etmək] və şəxsiyyətə hörmət əsasınca qüvvətli bir intizamın vücuda gətirilməsi.

[Daxili siyasət:]

1. Sibiryanın muxtariyyəti-siyasiyyəsi [siyasi muxtariyyəti] və həmçinin özlərini məhəlli idarəyə [öz yerli idarələrinə] malik olan ölkələrin muxtariyyətini təsdiq təriqi [yolu] ilə demokratik federasiya üsulunun möhkəmləşməsi.

2. Hal-hazırdakı heyətdən ibarət olan Məclisi-Müəssisanın yaxın zamanda dəvəti.

3. Yaxın zamanda təzə intixablar [seçkilər] təyin etməklə demokratik əsas üzərinə şəhər və zemstvo idarələrinin təcdidi [bərpası].

4. Rusiyada dövlət qanunlarının və məsuniyyəti-ictimaiyyənin [ictimai toxunulmazlığın] həqiqətdə mühafizə edilməsi üçün tədbirlər ittixazı [görülməsi] və əks-inqilab bolşevizm ilə ciddi surətdə mübarizə edilib, dövləti işlərdə cinayət edənlərin məsuliyyətlərinin təzayüdü [artırılması].

5. Milli siyasət[in] milli məhəlli muxtariyyətlərini etiraf [qəbul] və təsdiq[i] əsası ilə yürüdülməsi.

Xalq təsərrüfatı dairəsində:

1. Şura təşkilatlarını təsviyə [ləğv etmək] və bərtərəf etmək [aradan qaldırmaq] yolu ilə təxribat ilə mübarizə.

2. Xüsusi rus və əcnəbi sərmayələrinin cəlbi və xüsusi müəssisələrə geniş meydan verməklə sənaət [sənaye] tərəqqisinə müavinət [yardım] göstərilməsi.

3. Məsai [əmək] işlərinin qaydaya salınması.

4. Məsainin mühafizəsiylə xidmətə qəbul və kənar etmək işlərini qaydaya salmaq əsası ilə fəhlə qanunlarının genişləndirilməsi.

5. Fəhlələrin birləşməsinə veriləcək azadlığın etirafı [qəbulu; təsdiqi].

6. Sabit qiymətlər ilə taxıl inhisarının ləğvi.

7. Təzə kağız pullar buraxılmasından imtina edib, vergi işlərinin nizama salınması və müstəqim [birbaşa] gəlir vergisi ilə bilvasitə [dolayı] vergilərin artırılması.

Müəssisan heyəti-rüəsası [Təsisçilər rəyasət heyəti] 2 ay müddətinə intixab edilib [seçilib], Sədr Volski, müavin Qendelman və Arxangelsk[i] və katib Nikolayevdən ibarətdir.

## NƏZARƏTLƏRDƏ

* Nazirlər Şurası qərar vermişdir ki, Azərbaycan Hökuməti nəzdində Hərbiyyə Nəzarəti dəxi təsis edilsin. Hərbiyyə nazirliyinə Şurayi-Vüzəra Sədri Fətəli xan Xoyski və müavini-nazirliyinə general Səməd bəy Mehmandarov təyin ediləcəklərdir.

* Erməni cümhuriyyətində Azərbaycan Cümhuriyyəti siyasi nümayəndəliyinə dava vəkili M. x. Təkinski təyin edilmişdir.

**Maliyyə Nəzarətində**

Maliyyə Nəzarətində məsuliyyətli bir mövqe tutan bir zat [şəxs], mühəririmizi hüzuruna qəbul edərək, dövlətin maliyyə işləri haqqında Nəzarət tərəfindən görülən tədbirlər xüsusunda bərvəchi-ati [aşağıdakı] bəyanatda bulunmuşdur:

*"Maliyyə Nəzarətinin diqqətini ən artıq cəlb edən dövləti və xüsusi banklardır. Bu müəssisələrin böyük əhəmiyyəti var və Dövlət Bankının dürüst təşkili və müntəzəm fəaliyyəti, xüsusi banklar üçün bir bünövrə təşkil edir. Nəzarətdə bank işlərinə bələd adamların müşavirəsi olur. Tiflisdən bank işləri mütəxəssisləri dəvət edilmişdir. Dövlət Bankının islahı bunlara tapşırılır. Xülasə, bu xüsusda bilaaram işlənir. Hangi yerlərdə Dövlət Bankı açmaq xüsusunda Nəzarət bir çox tədbirlər təsəvvür edir [nəzərdə tutur]. Sabiq Dövlət Bankının məhəlli şöbəsi, Dövlət Bankının mərkəzi halına salınır. Dövlət Bankı kontorunda hələlik çek müamilatı təcdid [bərpa] edilmiş və hesabati-cariyyə [cari hesablar] açılmışdır. Bundan əlavə, uçot komitəsi təsis edilmişdir. Ən yaxın zamanda təməssük [veksel] uçotu, qiymətli kağızlar müqabilinə borc buraxmaq, mal əvəzinə borc buraxmaq və sairə kimi müamilat başlanacaqdır.*

*Büdcə məsələsinə baxmaq üçün, Nəzarətdə iki komisyon əmələ gəlmişdir. Birincisi Zirenin sədarəti altında olaraq mədaxil smetası tərtib verir. Digəri Aqurovun sədarəti ilə məxaric smetası hazırlayır. Hələlik smeta yoxdur, amma kanuni-saninin (yanvar) əvvəlinədək məşrut [şərti] smeta tərtib veriləcəyinə ümidvar oluruq. Dövlət Bankı da bu smeta ilə müamilatda [fəaliyyətdə] bulunacaqdır. Smetanın məşrut olmasının səbəbi budur ki, hal-hazırda ümum müəssisələrdən məlumat toplamaq mümkün deyildir. Hələlik, ancaq mərkəzi müəssisələr dürüst məlumat vermişlərdir.*

*Vergi məsələsinin əsasına Maliyə Nəzarəti yeganə gəlir vergisi qoymaq fikrindədir. Vergi sistemi yenidən nəzərdən keçiriləcək və əski vergilər ləğv ediləcəkdir. Hal-hazırda növbətdəki məsələ mədaxil və ziqiymət [qiymətli] şeylərə vergi təyini məsələsidir.*

*Vergi islahatı məsələsi ilə əlaqədar bir məsələ də var: Vergi müdiriyyəti idarəsinin islahı. Fəqət, mütəəssifanə [təəssüf ki], bu xüsusda səlahiyyatdar adam çox azdır.*

*Gömrük müdiriyyəti məsələsinə gəlincə, Maliyyə Nəzarəti bir çox gömrükxanalar açmışdır. Bəzi yerlərdə dəxi yenidən gömrükxana təsisi məsələsi növbətdədir. Məmləkətin sərhədi bu cəhətdən təmin ediləcəkdir."*

Müsahibəyə bununla xitam verilmişdir.

## AZƏRBAYCANDA

**Məclisi-Müəssisan dəvəti [çağırılması] ətrafında**

Təşrini-saninin 5-ində Ümuri-Xeyriyyə və Nafiə [Səhiyyə və Sosial Təminat] naziri M. b. Rəfiyevin sədarəti altında Azərbaycan Məclisi-Müəssisanı seçki komissiyasının birinci iclası vaqe olmuşdur. Komissiya üzvlərindən bir parası iclasda hazır olmadığından, sədr həmin iclası xüsusi müşavirə məclisi elan etmişdir. Bir qədər mübadileyi-əfkardan [fikir mübadiləsindən] sonra Məclisi-Müəssisanın Milli Şura tərəfindən təyin edilən vaxtda dəvət edilə bilməyəcəyini və məmləkətin hal-hazırdakı siyasi şəraiti bir para siyasi məsələlərdə camaat nümayəndəliyinin iştirakını tələb etməyi nəzərə alıb, müşavirə məclisi tezliklə sadə bir surətdə Azərbaycan Müvəqqət Parlamentosunun dəvət edilməsi arzusunda olduğunu izhar etmişdir.

Komissiyanın gələcək cəlsəsi [iclası] bu günlərdə vaqe olacaqdır. Müvəqqət Parlamento dəvət edilməsi məsələsi bu iclasda qəti surətdə həll və təsdiq üçün Hökumətə təqdim ediləcəkdir.

* * *

Azərbaycan Hökumətinin Gürcüstanda olan siyasi nümayəndəsi M. Y. Cəfərov Xariciyyə Nəzarətinə müraciət edib, Ərazi Nəzarətində Zaqafqaziya nahiyəsinə dair 1917-ci ilin siyahı (statistika) maddələrinin ona verilməsini xahiş etmişdir.

## BAKI XƏBƏRLƏRİ

* Maliyyə Nəzarəti əmri mövcibincə [əmrinə əsasən] bu günlərdə Azərbaycan gömrük işləri müdiri Lopato Tiflis və Zaqatal nahiyəsinə əzimət edəcəkdir [gedəcəkdir]. Bu zat Zaqatal nahiyəsi və Qazax qəzalarının Gürcüstan hüdudunda gömrük müəssisələri təsis edəcəkdir: Belokanski və Maqalinski gömrük mövzeləri [məntəqələri]; Samuxlinsk, Şıxlinski və Loqodenin 5 çağırımındakı Mazınçay gömrük qarovulları.

* Bələdiyyə idarəsi cənbindəki [nəzdindəki] Ərzaq şöbəsi Azərbaycan Dəmiryolları İdarəsinə müraciət edərək, bəzi malları daşımaqdan ötrü növbəsiz vaqon verilmək istidasında [xahişində] bulunmuşdur. Bu mallar əksərən aparılıb, taxıla mübadilə ediləcəkdir. Əlavə Ərzaq şöbəsi vaqonları təmir etmək və Yalama mövqifi [stansiyası] yanındakı dəmiryolunu təmir etmək üçün lazım olan mühümmatı [ləvazimatı] aparacaqdır. İşbu mühümmatın göndərilməsi təcili olmalıdır. Zira Bakıya taxıl və başqa ərzaq gətirmək məsələsi bundan asılıdır.

* Müəllim Rza Zakinin müdüriyyəti ilə Bakı Birinci realnı məktəbi mülkündə türk lisanı tədris etmək və Hərbiyyə məktəbinə cavanları hazırlamaq üçün türk dili kursları açılır. Dərslərə bu gün pəncşənbədən [cümə axşamından] etibarən şüru edilir [başlanır]. Bu kurslara az-çox savadlı cavanlar daxil olurlar. Dərs gecə olacaqdır.

**Sabunçuda bədbəxt bir hadisə**

Mirzəyev mədənlərində işləyən sarablı Əli oğlu Məhəmmədəli həmin mədənin dairəsində boş mənzildən özü üçün gedib elektrik lampası çıxararkən elektrik (ток) cərəyanı ilə ölmüşdür. Bu xüsusda mədən naziri Sabunçu polis idarəsinə xəbər vermişdir.

**Polis nəfəratının [nəfərlərinin] silahlanması**

2 təşrini-sanidə [noyabrda] Polis Müfəttişi-Ümumiliyi idarəsində alınmış məlumatdan anlaşılır ki, evlərdən və bir taqım əşxasdan [şəxslərdən] müsadirə edilmiş əlbisə ve silahdan polismester idarəsində olan bütün polis nəfərlərinə silah və libas verilmişdir. Xüsusi şəxslərə mütəəlliq [məxsus] əmval [mallar] isə, yiyələrinə verilmək üzrə polis anbarında saxlanmışdır.

* Mahi-hazırın [cari ayın] birində 8-inci Qanlıtəpə küçəsindəki 32 nömrəli evin həyətində olan quyudan (Nanegil Avaneskova) adlı bir qadının meyiti çıxarılmışdır. Nanegil quyuya atılmaqdan iləri boğulmuş imiş. Bu babda [barədə] təhqiqat davam edir. Hər halda təhqiqat davam etməkdədir.

* 3 təşrini-sanidə Qoqol küçəsində yaşayan Mirkazım oğlu Seyidəli, yeddinci polis məntəqəsi nazirinə [müfəttişinə] məlum etmişdir ki, keçən gecədə onun Telefonnı küçədə 6 nömrəli evdə olan mağazasından naməlum xırsızlar [oğrular] tərəfindən kassadan iki min beş yüz rublə para ilə mağazadan namüəyyən miqdarda çay və sabun oğurlanmışdır. Polis tərəfindən bu xüsusda təhqiqat gedir.

* 3 təşrini-sanidə "Xleb" şirkətinin furunundan [çörək və digər un məmulatları bişirmə sexindən] naməlum xırsızlar əli ilə cam (şüşə) sındırılıb, 12 kisə un aparılmışdır ki, unun qiyməti 9500 manat edir.

* Deviçinski küçədə birinci dalanın birinci evində yaşayan 56 sinnli [yaşlı] Qançeriç naməlum səbəbdən canını təslim etmişdir. Polis səbəblərini bilmək istəyir.

* Erməni qəbristanında 8-inci polis məntəqəsi naziri [müfəttişi] müavini gəzərkən bir nəfər süvarini keçən görür. Onu saxlamaq üçün çağırır. Süvari atını mahmızlayıb uzaqlaşdıqda, nazir müavini ona atəş açır. Süvari buna atəşlə cavab verdikdən sonra qeyb olur. Dəstə-tifaq ilə [dəstəylə, çox sayda adamla] gəlmiş nazir və digər müavinləri ol xüsusda [o barədə] bir şey yapammayırlar.

* Polis Müfəttişi-ümumisi [Baş polis müfəttişi] əmri mövcibincə [əmrinə uyğun olaraq], polis müdiri müavini tərəfindən Yelena Verstman adlı qadının oğurlanmış olan telefon, samovar və padnosu onun tanıdığına görə sahibəsinə iadə edilmişdir [qaytarılmışdır].

Silah tutulması

Təşrini-saninin [noyabrın] 3-ündə təhərri [axtarış] polis müdiri Erməni insaniyyətpərvər cəmiyyəti mülkündən 23 süngülü tüfəng, əl bombaları, 5 çarx səhra telefonu məftili, 165 fişəng və qeyrə [ilaxır] tapmışdır. Malakanski və Tramvaynı caddələrin küncündə sabiq 279 ehtiyat alayının 15 və 16-cı bölükləri olan evdən 3 düymə topa məxsus 3 mərmi, 26 mərmi pistonu, altı düyməlik mərmi, 4 ədəd əl bombası, tüfəng və 650 ədəd fişəng kəşf edilmişdir.

## TEATRO VƏ MUSİQİ

**Daimi Osmanlı marşı**

Sultan Mahmud xani-sani [II Sultan Mahmud xan] həzrətləri tərəfindən nizami-cədid əsgərinin hini-ehdasında [təsis edildiyi əsnada] ilk dəfə olaraq qəbul edilən və musiqişünaslardan Donizettenin əsəri bulunan marşın bundan sonra surəti-daimədə [daimi surətdə] Osmanlı marşı olaraq qəbulu iradeyi-səniyyeyi-cənabi-tacdarı icabı-aliyəsindən bulunmuş [tac sahibi padşahın uca iradəsi tərəfindən lazım görülmüş] və dəvairə [dairələrə; qurumlara] təbliğ edilmişdir.

**Azərbaycan şühədası mənfəətinə teatro**

Bu cümə Hökumət teatrosunda veriləcək tamaşa türk ədiblərindən Şəmsəddin Sami bəy mərhumun "Gaveyi-ahəngər" adlı məşhur əsəridir ki, Hacıbəyli qardaşlarının müdiriyyəti artistləri tərəfindən mövqeyi-tamaşaya qoyulacaqdır. Bu teatrodan hasil olan mənfəətin cümləsi Azərbaycan şühədası ailəsi mənfəətinə aiddir. İanə dəxi qəbul edilir.

## ŞAMAXIDA

Şamaxı vəkili Nəzərəliyev idarəmizə teleqram çəkərək, məzkur [adı çəkilən] nahiyənin əsəfnak [təəssüf doğuran] halını təsvir edir. Teleqrafda deyilir ki, buraya İrəvan qaçqınlarının vürudu [gəlişi] ilə xəstəlik bir qədər də çoxalmışdır. Ağsu və Şamaxını aclıq qırğını təhdid etməkdədir. Ərzaq və mühümmat yoxdur. Tibbiyyə və səhiyyə müəssisələri işləmirlər. Hər gün onlarla adam qırılmaqdadır. Ən yaxın zamanda köylər miyanında [arasında] hərəkat kəsilər də, ərzaq və başqa mühümmat almaq mümkün olammaz. Bunları ölüm və aclıqdan dolayı yatalaq çəngalından [caynağından] qurtarmaqdan ötrü, heç olmazsa 15 min put taxıl lazımdır. Davacat [dava-dərman] və nəqliyyat vasitələrinə ziyadəsincə möhtacıq.

300-dək acyalavac yetimlərdən hal-hazırda fəqət 50 nəfər Çuxuryurd malakanları xərcinə saxlanır. Yerdə qalanı isə öz müqəddəratına buraxılmışdır. İaşə məntəqələri və başqa müəssisələr yoxdur.

## SALYANDAN YAZIRLAR

Hal-hazırda bizim Salyan və ətraf köylərdə bir çox xəstəliklər, xüsusən, ispanyol nəzləsi [ispan qripi] hökmfərmadır [hökm sürməkdədir]. Dərman və müavinəti-tibbiyyə [tibbi yardım] yoxluğundan, əhali arasında ölüm şiddət kəsb etmişdir [şiddətli hal almışdır]. Bura xəstəxanasında fəqət [yalnız] bir türk doktoru bulunur ki, cərrahlıq ilə məşğul olduğundan, daxili xəstəliklərə baxır. İspanyol nəzləsi sirayətindən [yoluxmasından] xof edərək bir çoxları Salyandan fərara məcbur olmuşlar. İspanyol nəzləsindən heç kəs şəfayab olmamışdır [şəfa tapmamışdır]. Burada bir çox başqa xəstəliklər də var ki, bilənlərin dediyinə görə öz-özlüyündən qurtaracaqdır. Fəqət ispanyol nəzləsi qış fəslində bir qədər də şiddət kəsb edəcəkdir. İşbu xəstəlik Qalaqayında vardır. Buna baxmayaraq, quberniya tibbiyyə şöbəsi bir nəfər feldşer də göndərməyə təşəbbüs etməmişdir.

*T. B.*

## TÜRKÜSTANDA

Moskvada müntəşir [nəşr olunan] "İzvestiya" Türküstan barəsində belə məlumat verir:

"Bizim qitəatımız [hərbi hissələrimiz] şimdi Aşqabaddadırlar. İngilislər bu dairəyə sipahilərdən mürəkkəb 15 minlik bir ordu cəm etmişlər. Bunlar Hindistandan, Əfqanıstan və İran təriqi [yolu] ilə gəlmişlər. Türküstan mübarizəsi zamanı biz bir çox səhvlər etdik. Türküstan cəbhəsinə gedən Kukayev komandasındakı dəstə Povorinskiyə getməli oldu. Bu bizim Türküstan işimizi bir qədər geri saldı. Nəticədə ingilislər Krasnovodsk və Fort-Aleksandrovsku işğal etməklə, Xəzər dənizindəki fəaliyyətimizə mane oldular. Kaspi donanmamızın da ingilislər tərəfinə keçməsi, bu işi bir qədər də pozdu.

Türküstan muxtariyyəti elanı günündən etibarən müsəlmanlar Şuraya müzahirət [yardım] edirlər. Türküstanda Şura Hökuməti ümumən təsvib edilməkdədir [bəyənilməkdədir]. Hətta Buxara əmiri də bizim tərəfimizdədir. Bizim mürəxxəs [nümayəndə] Şmidt, əmirin ehtiramına məzhərdir [nail olmuşdur]. Bunun əsl səbəbi bəylərin əmirə tabe olmamaqlarıdır. Məhəlli [yerli] hökumət mərkəzi [hökumət] ilə bərabər çalışır. Dəmiryolunda isə əhval bir qədər fənadır. Əvvəllərdə dəmiryolu qulluqçuları məvaciblərini gec aldıqlarından naşi [aldıqları üçün], Hökumətə zidd gedirlərdi. Bir də fəaliyyətsiz bir komissarın iş başından qovulması, menşevik və inqilabçılardan ötrü bir dəstaviz [bəhanə] oldu. Bunlar əhali və dəmiryol qulluqçularını iğfal edərək [yoldan çıxararaq], Şura əleyhinə qalxışdırdılar. Onlar Səmərqənddə komissarı qətl etməklə, öz ricət [dönüş] yollarını kəsdilər."

## ELANLAR

"İbtisam" [təbəssüm] teatrosu dəniz kənarında bulvarda "Fenomen" teatrosu binasında.

* * *

Bu gün pəncşənbə [cümə axşamı] günü
7 təşrini-sani [noyabr] 1918-də
bir dəfə olaraq bakılıların sevgilisi məşhur müğənni Cabbar oxuyacaqdır. Tar, kamança dəxi çalınacaqdır.
İki gülməli pyesalar:
1) Heyrətli qadınla bir yerdə
2) Yaylı qadın
Akasel Vinoqradova ispanyol rəqsləri oynayacaqdır.
Tamaşa başlanır saat 6 yarım və 8-də. Cabbar oxuyacaq saat 7 və 8 yarımadək.

*246 1-1*

Türk Ocağına üzv olmaq istəyənlər hər gün sabah saat 10-dan saat 1-ədək, axşam saat 4-dən 6-yadək Nikolayevski küçədə Hüseynovun mülkündə sabiq "Raboçi klub" mənzilində Türk Ocağına rücu [müraciət] etməlidir.

*247 3-1*

Hökumətin icazəsilə cümə günü 8 təşrini-sani [noyabr] 1918-də saat 12-də Qorçakovski caddədə Tağıyevin 1 nömrəli evində Evçilər İttifaqının mülkündə (Borsanın altında) Bakı Ticarət və Sənatə İttifaqı üzvlərinin ümumi iclası təyin olunmuşdur. Baxılacaq məsələlər:

1) İttifaq məramnaməsinin müzakirəsi, təsdiqi; 2) İclasda qalxacaq məsələlər.

*713 2-2*

**YANĞINDAN SIĞORTA EDƏN MOSKVA CƏMİYYƏTİ**

Yanğından hər növ əmlak sığorta edir. Məsələn ev, ev müxəlləfatı [əşyası], mal, zavod, neft məhsulatı və qeyrə [və ilaxır].
Mərkəzi acentə: İ. P. Şreyder.
Unvan: Köhnə polis caddəsində, Qinatinin 11 nömrəli evində.
Telefon 5-47.

*239*

**Arvad diş həkimi Moiseyeva-Levin**

Olqinski caddədə ev nömrə 5, 3-üncü mərtəbə, sağda. Telefon nömrə 06-23.

Dişlərə müalicə edir, çıxarır. Kauçuk və qızıl üzərində sabiq Berlin şəhər müalicəxanasının müdiri nəzarəti altında süni dişlər qayırılır. Qəbul edir: səhər saat 9-dan 1-ə kimi; axşam saat 5-dən 8-ə kimi.

*216 25-13*

**Doktor F. S. Şteyn**

Naxoşları qəbul edir səhər saat 9-dan 12-yədək, axşam saat 5-dən 7-yədək.

Mariinski və Tarqovı caddələrin küncündə Əşrəfovun evi, "Jorj" əksxanası. Telefon nömrə 54-44.

*232 25-5*

**Arvad diş həkimi Z. A. Şexter xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir. Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215 25-13*

**Diş müalicəxanası**
**S.M. İtkinin süni diş laboratoriyası**

Dişlərin ağrısız çəkilməsi. Təzə üsulla farfor və qızıl dişlər qondarılması. Dişlərini qayıtdırmaq və diş qoydurmaq xahişində olanlar səhər saat 9-dan birə və 4-dən 6-ya qədər qəbul olunurlar.

Ünvan: Bolşoy Marskoy küçədə 37 nömrəli ev, telefon 06-25.

*208 25-16*

**Doktor Ağahüseyn Kazımov**

Əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olanları qəbul edir, hər gün saat 5-dən 7-yə kimi. Parapet, Şəbi İbrahimovun evində, 3-cü mərtəbə. Telefon 27-86.

*244 12-2*

**Diş təbibi Altmanın diş müalicəxanası**

Naxoşları qəbul edir saat 8-dən 10-a kimi, 4-dən 7-yə kimi, qadınları 1-dən 3-ə kimi. Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır, qızıl və kauçuk üzərində süni dişlər qayırır. Hərbilərə, məktəblilərə və çocuqlara külli faiz edilir.

Ünvan: Şamaxinski caddədə ev nömrə 20. Aptek qarşısında. Telefon 18-73.

*245 25-2*

**Müdirlər:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Azərbaycan Maarif Nəzarətindən Nömrə 82***

"Kremençuq ünas [qızlar] gimnaziyasının…": Ukraynanın Kremençuq şəhərindəki qız gimnaziyası nəzərdə tutulur.

***Vilhelmin hökumət başından çəkilməsi***

"Forverts" qəzetəsi təsdiq edir ki, nazir Şeydeman…": 4 oktyabr – 9 noyabr 1918-ci ildə hakimiyyətdə olan Maksimilian fon Baden başçılığındakı Hökumətdə Filipp Şeydeman portfelsiz nazir olmuşdur.

***Sülh ətrafında***

"...Amerikalılar isə Reyn körpülərini tuturlar.": "Reyn körpüləri": Qərbi Avropanın ən böyük çaylarından biri olan Reyn [Rhine] çayının üstündən keçən körpülər.

***Tiflis Saldat və Fəhlə Şurasının qətnaməsi***

"Bir çoxları Gürcüstan Hökuməti üzərində anarşi və iftiraculuq buludlarının qarışmasından istifadə edərək...": Qəzetdə "buludlarının" yerinə səhvən "bölüklərinin" getmişdir.

***Türk ədəbiyyat və lisanı və türk cərəyani-əfkarı***

"Təkyə": Dərviş və müridlərin toplaşaraq zikir etməklə məşğul olduqları yer.

"Və əiddü ləhüm məstəta'tüm min-qüvvətin": "Quran"ın "Ənfal" surəsinin 60-cı ayəsindən bir parça. Mənası: "Onlara qarşı bacardığınız qədər qüvvə hazırlayın."

"M. Hənəfi": Bu imza Hənəfi Zeynallıya məxsusdur.

***Bakı xəbərləri***

"Maqalinski": Çox güman ki, hal-hazırda Zaqatala rayonu ərazisində, Gürcüstan sərhədi yaxınlığında yerləşən Muğanlı kəndi nəzərdə tutulmuşdur.

"Samuxlinsk": Güman ki, Azərbaycanın indiki Samux rayonu ərazisindəki Qaraağaclı qəsəbəsi (keçmiş adı Qırmızı Samux) nəzərdə tutulur.

"Şıxlinski": Azərbaycanın Qazax rayonu ərazisindəki Şıxlı kəndi nəzərdə tutulur.

"Loqode": Gürcüstanın Laqodexi rayonu nəzərdə tutulur.

"Mazınçay": Azərbaycanın Balakən rayonu ərazisindəki Mazımçay kəndi nəzərdə tutulur.

***Türküstanda***

"İngilislər bu dairəyə sipahilərdən...": "Sipahilər": İngilislərin müstəmləkə Hindistanında yerli əhalidən yığdıqları muzdlu əsgərlər.

"Hətta Buxara əmiri də...": Burada söhbət sonuncu Buxara əmiri Seyid Alim xandan gedir.

***Elanlar***

"Fenomen teatrosu": "Fenomen" teatrı-kinematoqrafı Bakıda Dənizkənarı parkda, indiki Azərbaycan Dövlət Kukla Teatrının binasında yerləşirdi.